

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 77 (21.229)

22 aprel 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçkonu qəbul edib.

Pyotr Qlıboçko Bakıda gedən çox böyük inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını vurğuladı. O, ölkəmizin müvafiq strukturları ilə əməkdaşlığa toxunaraq rəhbərlik etdiyi təhsil ocağında xeyli sayda azərbaycanlı tələbənin uğurla təhsil aldığını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda təhsilə dövlət səviyyəsində böyük qayğının göstərildiyini qeyd edərək bu sahənin ölkəmizin inkişafının əsas prioritetlərindən biri olduğunu vurğuladı, gənc nəslin hərtərəfli inkişafı istiqamətində, o cümlədən peşəkar tibb kadrlarının yetişdirilməsi sahəsində ölkəmizdə genişmiqyaslı işlərin həyata keçirildiyini bildirdi.

Görüşdə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti ilə Azərbaycanın müvafiq qurumları arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.

## “Çanaqqala – Türkün şərəf tarixi” adlı elmi konfrans keçirilib



Aprelin 21-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində Çanaqqala savaşının 100 illiyi ilə bağlı “Çanaqqala – Türkün şərəf tarixi” adlı elmi konfrans keçirilib. Konfransı giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev Çanaqqala savaşı haqqında geniş məlumat verib.

Qeyd edilib ki, Çanaqqala döyüşü Birinci Dünya müharibəsi əsnasında – 1915-1916-cı illər arasında Osmanlı dövləti ilə Antanta dövlətləri (İngiltərə, Fransa, Anzaklar) arasında baş verən dəniz və quru döyüşüdür. İttifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiya ilə etibarlı qida və hərbi ticarət yolu açmaq, alman müttəfiqlərindən birini zəifləbmək məqsədilə ilk hədəf olaraq Çanaqqala boğazına giriblər. Ancaq hücumlar müvəffəqiyyətsiz olub və iki tərəfin də çox ağır itkilər verməsi ilə ittifaq dövlətləri geri çəkiliblər. Vurğulanıb ki, Çanaqqala döyüşlərində 3 minə yaxın azərbaycanlı şəhid olub.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, AMEA-nın müxbir üzvü Qadir Qədirzadə “Çanaqqala döyüşləri: faciə, soyqırımı və zəfər”, həmin institutun şöbə müdiri, dosent Emin Şıxəliyev “Çanaqqala döyüşləri: pərdəarxası məqamları və tarixi əhəmiyyəti” mövzularında məruzələrlə çıxış ediblər.

Məruzələrdə bildirilib ki, Çanaqqala savaşında türkün şanlı tarixinə zəfər dolu səhifələr yazılıb. Və bu zəfər qeyri-bərabər döyüşdə qazanılıb.

Tədbirdə Çanaqqala döyüşlərindən bəhs edən slayd nümayiş etdirilib.

Elmi konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

✍ Nərgiz İSMAYILOVA

## Rumıniyalı səfir Naxçıvanın mədəniyyət və istehsal müəssisələrində olub

*Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Daniel Kristian Çiobanu muxtar respublikaya səfərinin ikinci günündə Naxçıvan şəhərinin qədim tarixi abidələri və mədəniyyət obyektləri ilə tanış olub, bir neçə sənaye-istehsal müəssisəsində istehsal prosesi ilə maraqlanıb.*



Dünən rumıniyalı səfirin ilk tanış olduğu ünvan “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi olub. Burada səfirə məlumat verilib ki, Naxçıvan Muxtar Respublikasında tarixi, mədəni, dini abidələrin qorunmasına xüsusi diqqət göstərilir. Belə abidələrin bərpası və qorunması gələcək nəsillərə Azərbaycanın qədim tarixinin çatdırılması, eyni zamanda Naxçıvana turistlərin marağının artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağıdılmış və əvvəlki möhtəşəmliyini itirmişdi. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb. Naxçıvanın qədim tarixi-mədəni irsinin mühafizəsini təmin etmək məqsədilə burada “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi yaradılıb.

Rumıniyalı səfir “Əcəmi Seyrəngahı” Mədəniyyət və İstirahət Kompleksi, Naxçıvan Dövlət Xalça Muzeyi, Dövlət Bayrağı Meydanı və Muzeyi ilə də tanış olub.

Sonra rumıniyalı diplomat Naxçıvan Biznes Mərkəzinə gəlib. Məlumat verilib ki, mərkəzdə muxtar respublikada istehsal olunan məhsullar sərgilənir. Burada hazırda 90 müəssisənin 129 növdə və 652 çeşiddə məhsulu nümayiş olunur. 1995-ci ildən ötən dövr ərzində muxtar respublikada 812 yeni istehsal müəssisəsi yaradılıb. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 ildə Naxçıvanda ümumi daxili məhsul istehsalı 10,3 dəfə, sənaye məhsulunun həcmi 34,9 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,6 dəfə, əsas kapitala yönəldilən investisiyalar 11,5 dəfə, xarici ticarət dövriyyəsi 13,2 dəfə, o cümlədən ixracın həcmi 78 dəfə artıb. Təkcə 2014-cü ildə Naxçıvan Muxtar Respublikasında 47 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb.

Səfir həmin gün “Naxçıvan Avtomobil Zavodu”, “Gəmiqaya Mineral Sular”, “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal sahələrində olub, bu müəssisələrin mövcud imkanları ilə maraqlanıb.

✍ Səbuhi HÜSEYNOV

## Günəş elektrik stansiyası Naxçıvanın enerji təhlükəsizliyini daha da möhkəmləndirəcək

*Cəmiyyət inkişaf edib insanların tələbatları artdıqca, öz növbəsində, enerji və resurs tələbi də artır. Təbii ehtiyatların məhdudluğu, enerji resurslarından səmərəli istifadə məsələləri bu baxımdan hər bir ölkədə gələcəyə hesablanmış strateji inkişaf xəttinin əsasını təşkil edir.*



Ölkəmizdə də hələ 2004-cü ildən qəbul olunmuş “Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”na əsasən, enerji təminatı sahəsində resursəvəzləyici potensial əldə olunması strateqisi həyata keçirilir. Muxtar respublikamızda bu sahədə aparılan işlər regionun enerji təhlükəsizliyinə tam nail olmaqla Günəş və digər bərpa olunan alternativ enerji mənbələrindən gələcəkdə geniş istifadə üçün indidən zəmin hazırlayır. Bu yaxınlarda Babək rayonunun Xal-xal kəndi yaxınlığında quraşdırılmasına başlanılmış 20 meqavat gücündə olacaq Günəş elektrik stansiyasının yaradılmasında da məqsəd alternativ enerji sahəsində çox geniş potensialı olan Naxçıvan Muxtar Respublikasının ehtiyatlarından istifadəyə nail olmaqdır. Bu eyni zamanda ekoloji təmiz bir enerji mənbəyi kimi ətraf mühitin qorunması və yüksək texnologiyaların tətbiqi baxımından çox əhəmiyyətlidir.

Günəş elektrik stansiyası nədir? Sözsüz ki, Günəşin Yer üzündəki canlı həyatın mənbəyi olmaqla bərabər, həm də onun yağış, külək, dalğa, fırtına kimi nəhəng həcmdə enerji ayrılması ilə müşahidə olunan hadisələrin də əsl mənbəyi olduğunu bir çoxlarımız yaxşı bilirik. Amma Günəşin Yer kürəsində insanlara sonsuz miqdarda faydalı enerji verə bilməsi, istehsal və məişət məqsədilə bu enerjidən istifadə olunması ideyası yalnız XX əsrin sonlarından etibarən gerçəkləşməyə başlamışdır. Planetdə enerji istehlakının sürətlə artmasına paralel olaraq, bərpa olunmayan ənənəvi karbohidrogen və nüvə enerjisi ehtiyatlarının da sürətlə azalması Günəş enerjisi kimi bərpa olunan və digər alternativ enerji ehtiyatlarından istifadəni aktual etmişdir.

Günəş enerjisi və digər alternativ enerji mənbələrindən istifadə olunması ilə elektrik enerjisi alınması üçün Yer kürəsinin hər yerində imkanlar eyni deyildir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının yerləşdiyi cənub en dairələrində günəşli günlərin sayı belə məqsədli layihələrin rentabelliyini artırır. Texnologiyanın inkişafı ilə Günəş işığından elektrik əldə etməyə imkan verən cihazların təkmilləşməsi və onların kütləvi istehsalı ilə qiymətinin ucuzlaşması gələcəkdə bu enerji növündən daha çox faydalanma potensialını artırır. Günəş enerjisinin potensialı heyrətamiz dərəcədə yüksəkdir. Belə ki, bir araşdırmaya görə, bir həftə ərzində Yer kürəsinə düşən Günəş işığının enerjisi planetimizdə mövcud olan bütün neft, qaz, kömür və uran ehtiyatlarının cəmi enerji potensialından çoxdur. Deməli, əgər bu gün Günəşin yerə çatan enerjisinin cəmi on mində bir hissəsindən istifadə olunursa və gələcəkdə bu rəqəm cəmisi 1 faizə çatarsa, onda planetdə enerji böhranı aradan qalxmış olar.

Günəş və digər alternativ bərpa olunan enerji mənbələri ilə işləyən elektrik stansiyaları iqtisadi və ekoloji cəhətdən cəlbedici olmaqla bərabər, onları quraşdırmaq və vahid enerji şəbəkəsinə daxil etmək üçün kifayət qədər həcmdə işlərin aparılması tələb olunur. Doğrudur, burada tətbiq olunan texnologiya və infrastruktur təminatı kifayət qədər bahalı olduğundan əldə olunan enerjinin maya dəyəri, hələ ki, digər ənənəvi enerji ehtiyatları hesabına əldə olunan enerjinin maya dəyərindən artıq başa gəlir. Ancaq məsələyə digər prizmadan, məsələn, ekoloji təmizlik və təhlükəsizlik baxımından yanaşdıqda Günəş elektrik stansiyasının atom və yaxud istilik elektrik stansiyaları ilə müqayisəli üstünlüyü açıq görünür. Müqayisə üçün qeyd edək ki, burada qəza nəticəsində ətrafa sıza biləcək radioaktiv tullantılardan, yaxud havaya buraxılan tüstü qazlarının təhlükəsindən danışmaq mümkün deyil. Yeni texnologiyaya əsaslanan çərçivəsiz Günəş panellərinə düşən işıq birbaşa olaraq elektrik enerjisinə çevrilərək şəbəkəyə ötürülür. Məsələnin ikinci tərəfi, yəni enerji təhlükəsizliyi baxımından Günəş elektrik stansiyalarının yaradılması isə Naxçıvanın enerji asılılığının tamamilə aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət daşıyır. Buna görə də deyə bilərik ki, indi iqtisadi inkişafımızdan və Naxçıvanın bol günəşli günlərindən istifadə edərək il ərzində bölgənin davamlı enerji təminatı məsələsini həll etməyin zamanı gəlmişdir. Vaxtilə blokada vəziyyətinə salınmaqla əsas enerji və kommunikasiya əlaqələri kəsilmiş Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi istiqamətində dövlətimizin həyata keçirdiyi məqsədyönlü işlər nəticəsində artıq regionda həm istilik, həm yerli hidroenerji potensialına əsaslanan su elektrik stansiyaları sayəsində etibarlı enerji infrastrukturu yaradılmışdır. İndi Naxçıvanda istehsal edilən elektrik enerjisinin tələbatdan artıq hissəsinin xaricə də ixrac olunması məhz bu işlər nəticəsində mümkün olmuşdur. Lakin bu da son hədəf deyil. İndi Naxçıvanda qurulan Günəş elektrik stansiyası hesabına bu güc yaxın gələcəkdə daha da artacaq. Nəticədə, yollarımız daha çıraqban, mənzillərimiz daha da işıqlı və isti olacaq. Çünki yurdumuzda Günəş daha parlaqdır.

✍ Əli CABBAROV

***Kəndlərin inkişafı muxtar respublikada həyata keçirilən quruculuq siyasətinin əsas istiqamətlərindən biridir. Muxtar respublika əhalisinin, təqribən, 70 faizi kəndlərdə yaşadığı üçün belə yaşayış məntəqələrində aparılan quruculuq işləri mühüm əhəmiyyət daşıyır. Görülən işlərin nəticəsidir ki, Naxçıvanın əksər kəndləri müasir yaşayış məntəqəsinə çevrilib. Sistemli və düşünülmüş şəkildə aparılan bu işlərin əsas məqsədi kənd sakinlərinin rahat yaşayışını təmin etmək, kəndlə inkişaf etmiş şəhər arasındakı fərqi aradan qaldırmaqdır.***

*Blokada və intibah*

# Naxçıvanın kəndlərində şəhər rahatlığı yaradılıb

Naxçıvanda kəndlərin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bir neçə cəhətdən özünəməxsusluğu ilə seçilir. Muxtar respublikanın kəndlərində kompleks quruculuq işləri aparılır. Yəni kəndlərdə tikinti-quruculuq işləri aparılarkən məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası inşa olunur, həmin yaşayış məntəqəsinin yolu abadlaşdırılır, mövcud infrastrukturu müasirləşdirilir. Son 20 ildə muxtar respublikanın 120-yə yaxın kəndində belə kompleks quruculuq işləri aparılıb. Kəndlərin inkişafı, əhalisinin rahatlığının təmin olunması, rifah halının yaxşılaşdırılması üçün görülən işlər yalnız yeni binaların tikilməsi ilə məhdudlaşmır. Muxtar respublikanın bütün kəndləri fasiləsiz elektrik enerjisi və təbii qazla təmin olunur, əhaliyə keyfiyyətli rabitə xidməti göstərilir. Bundan başqa, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülür, torpaq mülkiyyətçilərinə aşağı faizlə kredit, lizinq yolu ilə kənd təsərrüfatı texnikaları, pulsuz mineral gübrələr verilir.

Naxçıvanda kəndlərin inkişaf etdirilməsinin özünəməxsus cəhətlərindən biri də odur ki, kəndlərdə şəhər infrastrukturu yaradılır, tikinti-quruculuq işləri aparılarkən heç bir yaşayış məntəqəsinə fərq qoyulmur. Məsələn, Şərur rayonunun aran kəndi olan və muxtar respublikanın böyük yaşayış məntəqələrindən biri hesab edilən Dəmirçidə hansı quruculuq işləri aparılıbsa, rayonun ucqar Şahbulaq kəndində də eyni binalar tikilib, eyni infrastruktur yaradılıb. Bu müqayisəni Kəngərli rayonunun Şahtaxtı və Çalxanqala, Şahbuz rayonunun Sələsüz və Ağbulaq, Ordubad rayonunun Aşağı Əylis və Nəsirvaz, Culfa rayonunun Yaycı və Ləkətağ kəndləri arasında da aparmaq olar. İndi Naxçıvanın ən ucqar dağ kəndlərində belə, müasir məktəb binaları, kənd və xidmət mərkəzləri, səhiyyə ocaqları fəaliyyət göstərir, onların yolu şəhər yolundan seçilmir. Ucqar dağ kəndlərində həyata keçirilən quruculuq işləri o yurdun insanlarının doğma torpağa daha sıx tellərlə bağlanmasına, məskunlaşmanın artmasına səbəb olub. Yeri gəlmişkən qeyd edək ki, Naxçıvanda həyata keçirilən kənd quruculuğu bir sıra dünya ölkələri üçün nümunədir. Məsələnin mahiyyətinə varmaq üçün bəzi məqamlara diqqət yetirək. Bu gün bütün dünyada kəndlərdən şəhərlərə doğru bir axın var. Bəzi ölkələrin şəhərlərində əhalinin sıxlığı müşahidə olunur. Həmin ölkələrdə kəndlərin boşalması bir sıra problemlər yaradıb. Kənd təsərrüfatı sahəsi iflic vəziyyətə düşüb, nəticədə isə o ölkələr zəruri ərzaq məhsullarını idxal etmək məcburiyyətində qalıblar və hansısa ölkədən asılı vəziyyətdədirlər. Naxçıvan Muxtar Respublikasında biz tamam başqa mənzərənin şahidi oluruq: muxtar respublikada 5 şəhər olduğu halda, əhalinin 70 faizi kəndlərdə yaşayır. Kəndlərdə əhali məskunluğunun artması, kənd təsərrüfatının inkişafı ona gətirib çıxarıb ki, Naxçıvan, demək olar ki, bütün zəruri kənd təsərrüfatı məhsulları ilə təminatını daxili istehsal hesabına ödəyir və heç bir xarici ölkədən asılı vəziyyətdə deyil. Kəndlərdə aparılan quruculuq işləri, şəhər rahatlığının yaradılması şəhərə axının qarşısını alıb.

Vaxtilə elektrik enerjisi və təbii qazı, məktəb binası, yolu olmadığından əhalisi köçən nə qədər kəndimiz var. Əgər kəndlərdə kompleks quruculuq işləri həyata keçirilməsəydi, bu gün Şahbuz rayonunun Ağbulaq, Yuxarı Qışlaq, Gömür, Biçənək kəndləri Zərnətünün, Xinzirəyin, Ordubad rayonunun Tivi, Nəsirvaz, Kotam, Bist, Ələhi kəndləri Kilitin, Şərur rayonunun Şahbulaq, Yuxarı Yaycı, Havuş kəndləri Billavanın acı taleyini yaşayacaqdı. Qədim yurd yerlərimizin sahibsiz qalmaması üçün 1995-ci ildən sonra "Şəhərdə nə varsa, kənddə də o olacaq" devizi ilə kəndlər abadlaşdırıldı, müasirləşdirildi, əhalinin rifah halı yaxşılaşdırıldı. Abad yolu, müasir məktəbi, kitabxanası, mədəniyyət evi, ticarət mərkəzi, sürətli interneti olan, fasiləsiz elektrik enerjisi və təbii qazla təmin edilən kəndlinin səs-küylü, bir az da atmosferi çirklənən şəhərdə nə işi var?

Əvvəldə də qeyd etdiyimiz kimi, muxtar respublikanın kəndlərində aparılan quruculuq işləri özünəməxsusluğu ilə seçilir. Belə yaşayış məntəqələrində inşa olunan kənd və xidmət mərkəzləri məzmun və mahiyyətcə yeni obyektlərdir. Bu obyektlərin adı həm də son illər dilimizin leksikonuna daxil olan yeni sözlərdir. Bu yeni obyektlər və sözlər artıq elmi tədqiqata cəlb olunub. AMEA-nın müxbir üzvü Adil Bağırov "Naxçıvanın urbanonimləri" kitabında yazır: "Azərbaycan dilinin onomastik leksikonuna son illərdə daxil olmuş kənd mərkəzlərinin adları urbanonimlərin tərkib hissələrindən biridir. Bu adlar yaşayış məntəqələrinin topoqrafik obyektinə məxsus xarakterik xüsusiyyətləri özündə əks etdirir. Kənd mərkəzləri kəndin ümumi və müasir meydanının ünvanını bildirir. Belə mərkəzlər kəndin bir hissəsində yerləşir. Kənd mərkəzləri və onların adları ilk dəfə Naxçıvan Muxtar Respublikası ərazisində meydana gəlmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun şəxsi təşəbbüsü, böyük qayğısı və uzaqgörənliyi sayəsində həyata vəsiqə almış, muxtar respublikanın dinamik inkişafı nəticəsində formalaşdırılmışdır".

Alim yazır ki, kənd mərkəzləri öz məzmununa və formasına, orada yerinə yetirilən işlərin xarakterinə görə kəndin əsas mədəniyyət mərkəzidir. Bu mərkəzlər keçmiş kənd meydanlarını xatırlatsa da, öz məzmunu və formasına görə keçmiş meydanlardan tamamilə fərqlənir. Keçmiş kənd meydanları kiçik, darısqal, tozlu-torpaqlı məhəllələrdə yerləşirdi. Kənd meydanları əhaliyə mədəni-məişət, səhiyyə, poçt, rabitə və sair kimi xidmətlər göstərməkdən uzaq idi, indiki kənd mərkəzlərinin yerinə yetirdiyi funksiyaları əhatə edə bilmirdi. Kənd meydanlarından fərqli olaraq, kənd mərkəzləri kəndin idarə olunmasında, mədəni tədbirlərin keçirilməsində, əhaliyə rabitə, poçt xidmətlərinin yerinə yetirilməsində mühüm rol oynayır. "Kənd mərkəzi" adı görülən işin profilinə uyğun seçilmişdir. Bu ad yerinə yetirilən işin mahiyyətini özündə əks etdirə bilir.

Kənd mərkəzlərinin tikilməsi ilə Naxçıvanın kəndlərində əhalinin bir sıra problemləri öz həllini tapıb. Belə mərkəzlərin yaradılmasından əvvəl kəndlərdə fəaliyyət göstərən ayrı-ayrı qurumlar yaşayış məntəqəsinin müxtəlif yerlərində köhnə, uyğunlaşdırılmış binada yerləşirdi. Əhalisi çox olan kəndlərdə mövcud vəziyyət insanların çətinliklərlə qarşılaşmasına səbəb olurdu. Əhali müəyyən yerli məsələlərin həlli üçün xeyli vaxt sərf edirdi. Kənddə fəaliyyət göstərən qurumların – inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, mədəniyyət evinin, kitabxananın, polis sahə və baytarlıq məntəqələrinin, poçt bölməsinin kənd mərkəzində yerləşdirilməsi əhalinin rahatlığını təmin edib. Kənd sakinləri hansısa problemini həll etmək üçün artıq rayon mərkəzinə getmək məcburiyyətində deyil. Onların bütün problemləri elə bu kənd mərkəzlərində həll olunur. Bu da vaxt itkisinin qarşısını alır ki, bu barədə biz az sonra danışacağıq.

Naxçıvanın kəndlərində mahiyyət və məzmunca yeni olan obyektlərdən biri də xidmət mərkəzləridir. Belə mərkəzlərdə mağaza, bərbərxana, qadın gözəllik salonu, ət satışı dükanı fəaliyyət göstərir ki, bu da əhalinin gündəlik tələbatını elə yaşadığı kənddə ödəməsinə, vaxt itirmədən öz problemlərini həll etməsinə imkan verir.

Yeri gəlmişkən qeyd edək ki, dünyanın müxtəlif ölkələrində xidmət obyektləri sahibkarlar tərəfindən yaradılır. Dövlət vəsaiti hesabına xidmət obyekti yaradıb pulsuz-parasız sahibkarın istifadəsinə verməyin yeganə nümunəsi Naxçıvanın kəndlərindəki xidmət mərkəzləridir.

Kənd adamı ona yaradılan şərait müqabilində qazandığı vaxtını təsərrüfatına sərf edir. Beləliklə, həm təsərrüfatını inkişaf etdirir, həm də rayon mərkəzinə və ya paytaxt Naxçıvan şəhərinə gəlib-gedərkən xərclədiyi vəsaiti başqa ehtiyaclarının ödənilməsinə yönəldir.

Muxtar respublikanın kənd yaşayış məntəqələrində aparılan quruculuq işlərinin özünəməxsus cəhətlərindən biri də odur ki, Naxçıvanın ucqar dağ kəndlərində belə, ən müasir məktəb binaları istifadəyə verilib. Bütün bunlara asanlıqla nail olunmayıb. Naxçıvanlılar bu işlərin necə böyük çətinliklə başa gəldiyini çox yaxşı bilirlər. Ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın əksər kənd yaşayış məntəqələrində məktəblər uçuq-sökük, heç bir şəraiti olmayan binalarda fəaliyyət göstərirdi. Vaxtilə jurnalist həmkarlarımız Naxçıvanın o çətin günlərini ürəkağrısı ilə qələmə alıblar. Yaşlı və orta nəslin yaddaşını təzələmək, o dövrü görməyən bugünkü yeniyetmə və gənclərə ötən əsrin 90-cı illərinin əvvəllərindəki çətinlikləri göstərmək üçün ***"Şərq qapısı" qəzetinin 16 iyul 1994-cü il tarixli sayında dərc olunan "Ümidlər doğrulacaqmı?" sərlövhəli məqalənin bir hissəsini təqdim edirəm:*** "Muxtar respublikanın düşdüyü blokada şəraitində yarımçıq qalmış tikililərin taleyindən söhbət açmaq, bəlkə də, yersiz görünür. Amma elə məsələlər var ki, onlar barədə susmaq, söz deməmək olmur. Axı bu problemlər çoxlarının hər gün üzləşdiyi çətinliklərdir. Məsələn, Güznüt kənd məktəbinin (Babək rayonu) müəllim və şagirdlərinin illərdən bəri həsrətini çəkdikləri məktəb binası. O məktəb binası ki, təməli 7-8 il bundan əvvəl qoyulub. O vaxtlar nə blokada var idi, nə də ki, material qıtlığı. Nədənsə, hansı bigənəliyin ucbatındansa 164 yerlik məktəb binasının tikintisi ildən-ilə keçirildi və nəhayət, indiki şəraitdə tamamilə unuduldu. Vaxtilə köhnə, yöndəmsiz məktəb binasının yanında, idman meydançasının ərazisində yerləşəcək məktəb binasının özülü qazılanda çoxları sevindi. Məktəblilər inandı ki, nəhayət, 2 min nəfərə yaxın əhalisi olan Güznüt kəndində də məktəb binası tikiləcəkdir. Amma əfsuslar olsun ki, bu sevinc, bu arzu illər uzunu şagirdlərin ürəyində qaldı. İllər ötdükcə çoxları məktəbi qurtardı, yaşa doldu, peşə, sənət, ev-eşik sahibi oldu, özülü qazılmış məktəb binasının isə ancaq çuxuru qaldı. Hal-hazırda şagirdlər vaxtilə süd emalı məqsədilə tikilmiş, sonra isə tütün qurutmaq üçün istifadə edilən köhnə, yöndəmsiz binada dərs keçirlər. Binanın tavanından boylanan paslı mismarlar tütünçülərdən qalan yadigarlardır. Məktəbə yolu düşənlər yaxşı bilir ki, bu uyğunlaşdırılmış binada dərs keçmək, uşaqlara elm öyrətmək olduqca çətindir. Darısqal, döşəməsinə torpaq tökülmüş, divarları bir neçə yerdən cadarlamış qaranlıq otaqlarda dərs keçmək hansı səmərəni verəcək?"

***Hörmətli oxucu!*** Bu hələ, necə deyərlər, Naxçıvan şəhərinin bir addımlığında yerləşən kəndin məktəbi haqqında deyilən fikirlərdir. Təsəvvür edin ki, ucqar yerlərdə olan məktəb binaları hansı səviyyədə imiş. Muxtar respublikanın digər kəndlərinin sakinləri kimi, Güznütün də məktəblilərinin arzuları son 20 ildə reallığa çevrildi. İndi Naxçıvanın hər kəndində sanki bir universitet binası, müasir, işıqlı sinif otaqları, kompüter, elektron lövhəli sinfi, fənn laboratoriyaları olan məktəblər ucaldılıb.

Bu inkişaf və tərəqqi son 20 ilin bəhrəsidir. Tarix üçün o qədər də uzun dövr olmayan 20 ildə muxtar respublikada blokada şəraitində intibaha nail olundu, Naxçıvanın kəndlərində şəhər infrastrukturu yaradıldı.

**20 il bundan öncə Naxçıvanın kənd yaşayış məntəqələrinin məktəbliləri belə binada təhsil alırdılar.**



**Bu gün isə belə müasir binalarda dərs keçilir.**



**20 il bundan öncə Naxçıvan kəndinin ümumi mənzərəsi belə idi.**



**Bu gün isə belədir.**



Muxtar respublikamızın kəndlərində şəhər rahatlığının yaradılması insanların qurub-yaratmaq əzmini də yüksəldir. Təəssüflər olsun ki, bəzi insanlar dövlətin yaratdığı şəraitdən düzgün istifadə etmir, ümumi inkişafımıza öz töhfələrini vermirlər. Əgər kənd təsərrüfatının inkişafına göstərilən bu qədər böyük qayğının müqabilində bəzi kəndlərdə torpaqlar əkilməmiş qalırsa, insanların rahatlığı üçün tikilmiş xidmət mərkəzlərində qadın gözəllik salonları, bərbərxanalar, ət satışı dükanları anbarlara çevrilirsə, kənd mərkəzlərindəki müasir kitabxanalara oxucu cəlb olunmursa, belə mərkəzlərdəki mədəniyyət evlərində, heç olmasa, ayda bir mədəni tədbir keçirilmirsə, bunun bir adı var – biganəlik.

Gəlin papağımızı qoyaq qabağımıza, əlimizi də vicdanımızın üstünə və fikirləşək. Dövlət bizim üçün nə edir və biz nə edirik?

**Naxçıvan ümumi evimizdir. Onun qeydinə qalmaq hamımızın vətəndaşlıq borcudur. Naxçıvanın təmizliyini, abadlığını qorumaq hamımızın, əhaliyə nümunəvi xidmət göstərmək isə bütün müəssisə və təşkilatların borcudur. İnanırıq ki, kənd yaşayış məntəqələrindəki bu kiçik problemlər də qısa zaman ərzində öz həllini tapacaq, Naxçıvanın kəndlərində yaradılan şəhər rahatlığından insanlar dövlətin istədiyi kimi faydalanacaqlar.**

**Tural SƏFƏROV**

# Soyqırımı barədə həqiqətlər

***Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində XX əsrdə ermənilərin İrəvan quberniyasında, Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Zəngəzur qəzalarında törətdikləri soyqırımı siyasətinə dair çoxlu sənədlər aşkar edilərək üzə çıxarılmışdır. 1918-1920-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırımından bəhs edən sənədlərlə yanaşı, həmin dövrün canlı şahidi olmuş insanların xatirələri də arxivdə mühafizə edilir.***

Həmin xatirələrdən biri maarifçi Qasım Hacı oğlu Tağıyevə məxsusdur. Q.Tağıyev xatirələrində yazır:

– 1918-ci il aprel ayının 28-də Naxçıvan ərazisinə belə bir xəbər yayıldı ki, daşnakların lideri Andranik Ozanyanın vəhşi alayı İrəvandan Naxçıvan üzərinə hərəkət etməyə başlamışdır. 1918-ci il may ayının 28-də Andranik Ozanyanın vəhşi alayı Yaycı kəndini dağıtdı.

1918-ci il may ayının 29-dan iyun ayının 20-dək Əbrəqunus zonasında Ərəzin, Camaldın, Qızılca, Kırna, Bənəniyar, Saltaq, Noraşen (indiki Göydərə), Xoşkeşin, Xanağa (indiki Xanəgah) kəndlərini, Ordubad zonasında Düylün, Gilançay, Üstüpü, Sunbatan-Dizə, Kərimqulu-Dizə, Biləv, Tivi kəndlərini, Naxçıvan zonasında Qahab, Sirab, Zeynəddin, Qaraqala kəndlərini dağıtdılar.

Andranik həmin əraziləri xarabazara çevirdikdən sonra Naxçıvan şəhərinə gəldi. O, bütün qüvvəni toplayıb Nehrəm kəndində öz vəhşiliklərini davam etdirmək istəyirdi. Bu məqsədlə Nehrəmin yaxınlığında olan Güznüt kəndini özünə qərargah etdi.

1918-ci il iyun ayının 23-də sübh tezdən Andranikin vəhşi alayı Nehrəm üzərinə hücuma keçdi. Kərbəlayi Muxtarın başçılığı ilə nehrəmlilər Andranikə qarşı rəşadətlə vuruşdular, iyunun 23-dən 25-dək kənddə əlbəyaxa vuruşma oldu. Silahı olmayan 15 yaşından yuxarı cavanlar, habelə qocalar da balta, xəncər və şişlə vuruşurdular. Nəhayət, Andranik Nehrəmdə çox itki verdi və məğlub oldu.

Nehrəm məğlubiyyətindən sonra Andranik türklərin Naxçıvana gəlməsi ilə əlaqədar Zəngəzura doğru hərəkət etdi...

Daşnaklar Şərur və Vedibasar istiqamətlərində hücuma keçmişdilər. 1918-ci ilin oktyabr ayında döyüş başladı. Kalbalı xanın başçılığı ilə Dəhnədə, Abbasqulu bəy Şadlinskinin başçılığı ilə Vedi dağlarında daşnaklara ciddi müqavimət göstərildi. 1918-ci il oktyabr ayının 20-də başda general Tomson olmaqla, ingilislər Naxçıvana gəldilər. Antanta dövlətləri daşnak partiyasının müttəfiqi idi. Ona görə Antantanın başçısı olan ingilislər daşnakları müdafiə edirdilər.

1918-ci il oktyabr ayının 30-da Naxçıvan əhalisini "Xırda bağ"ın qabağına topladılar. General Tomson nitq söyləyib dedi ki, Naxçıvan danışıqsız daşnak hökumətinə təslim olmalıdır. Daşnakların baş valisi Varşamyan Naxçıvanda hökmranlıq etməyə başladı.

1919-cu il mart ayının 3-də Naxçıvanda daşnaklara qarşı mübarizə başlandı. Üsyanda ətraf kəndlərin silahlı dəstələri də iştirak edirdi. Bir neçə gün şiddətli vuruşma oldu. "Hümmət" qrupunun Naxçıvan "Ülfət" məclisi tərəfindən ayrıca drujina yaradılmışdı. Bu drujinanın əksəriyyəti gənclərdən ibarət idi. Lakin ingilis generalı Tomsonun əli ilə üsyan yatırıldı.

1919-cu il mart ayının 30-da Naxçıvanın bir sıra yerlərinə intibahnamələr yapışdırılmışdı. Bu intibahnamələr "Hümmət" qrupunun Naxçıvan "Ülfət" məclisi tərəfindən ingilislərə qarşı yazılmışdı. Burada deyilirdi: *"Ey Naxçıvan əhli, ey naimlər! Bir qəflət cəhvarəsinin cəhalət yuxusundan ayılın, görün, qoca ananızın sinəsində kimlər at oynadır"*.

1919-cu il aprel ayının 27-də ingilislər Naxçıvan ərazisindən tamamilə çıxıb getdilər. Lakin daşnakların vəhşicəsinə özbaşınalıqları davam edirdi.

1919-cu il iyun ayının 2-də daşnak ordusunun polkovniki Poqosov Nehrəm kəndinə gəlib nehrəmlilərin silahlarını tələb etdi. Nehrəmlilər nəinki silah verdilər, hətta polkovnik Poqosovu və onun 60 nəfər əsgərini tərk-silah edib saxladılar. Həmin gün nehrəmlilər Naxçıvan şəhərində daşnak hökumətinə qarşı mübarizəyə başladılar. Bu mübarizəyə bütün ətraf kəndlərin və Naxçıvan şəhərinin zəhmətkeşləri qoşuldu. Döyüş iyun ayının 2-dən 6-dək davam etdi. Nəhayət, daşnaklar Naxçıvan ərazisini tərk etməyə məcbur oldular.

Qasım Tağıyev xatirələrində daha sonra yazır ki, 1920-ci il aprel ayının 28-də Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Gəncədə bolşeviklərə qarşı vuruşmada məğlub olmuş cümhuriyyət generalı Həbib bəy Səlimov öz alayı ilə 1920-ci il may ayının 28-də Naxçıvana gəldi. O, əvvəl öz silahlı qüvvəsini Nehrəmdə yerləşdirdi. Daha sonra öz alayı ilə Naxçıvan şəhərinə daxil olub Kalbalı xanla birləşdi. Bunların hər ikisinin başlıca məqsədi bolşeviklərə müqavimət göstərmək idi.

1920-ci il iyun ayının 29-da Naxçıvan şəhərində mitinq təşkil edildi. Bu mitinqdə Kalbalı xan çıxış edərək dedi: *"İndi daşnaklar bizim üçün o qədər də qorxulu deyil. Bizim üçün ən qorxulu düşmən Zəngəzur dağlarından gələn bolşeviklərdir – qızıl ordudur"*.

Andranikin Nehrəmə hücumu haqqında Nehrəm taborunun iştirakçısı Heydərqulu Həsənov şahid olduğu hadisələr haqqında yazır:

– Andranikin qoşunları ilə əsas döyüş İmamzadə tərəfdə gedirdi. Andranik cəhd edirdi ki, Nehrəm kəndinin kənarından keçib Təzəkənddə toplaşan 300 nəfərlik daşnak silahlı dəstəsi ilə birləşsin. Lakin nehrəmlilər buna imkan vermirdi. Yaxşı silahlanmış dəstələrimizin komandanı Kərbəlayi Muxtar məhəllələri gəzir, əhalini döyüşə qaldırır, atəş nöqtələrinə patron, çörək, su çatdırırdı.

Erməni daşnaklarına qarşı 1918-1920-ci illərdə vuruşan Məmmədəli Mehdiyevin xatirələrindən:

– Andranik qoşunu ilə əvvəlcə Dərələyəz mahalından bu tərəfə hərəkət etdi. Naxçıvan ölkəsinə gəlməmişdən qabaq Sisyan rayonunda olan bütün Azərbaycan kəndlərinin əhalisini qırdı. Əldən qurtaran əhali Naxçıvana çatdı. Erməni daşnakları kəndləri dağıdıb evləri, mal-qaranı talan etdi. Sonra Andranik Naxçıvan ölkəsinə keçdi. Zəngəzurdan qayıdan Andranik mövqeyini Naxçıvanda möhkəmləndirdi. O, öz qərargahını Güznüt kəndində yerləşdirdi. Andranik dəstəsi ilə birgə Qoşadizə, Şəkərabad, Qahab, Zeynəddin, Sirab, Qaraqala və sair kəndlərə hücum edərək əhalini qətlə yetirir, kəndləri talan edir, evləri yandırırdı. Sirab dağına pənah gətirib ora toplaşan 460 nəfər kişi, qadın, uşaq daşnaklar tərəfindən öldürüldü.

Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində ermənilərin Naxçıvan, Şərur-Dərələyəz, Ordubad, Zəngəzur qəzalarında, həmçinin İrəvan quberniyasında vəhşilikləri ilə bağlı xatirələrlə yanaşı, Vedi taborunun komandanı Abbasqulu bəy Şadlinski və onun silahdaşlarının erməni daşnaklarına qarşı mübarizədə apardıqları qəhrəmanlıqlar barədə də xatirələr vardır.

Arxiv sənədlərindən, tarixi faktlardan, şahidlərin xatirələrindən aydın olur ki, ermənilər 1905-1907, 1918-1920-ci illərdə, eləcə də 1988-ci ildən sonra azərbaycanlılara qarşı soyqırımı törədiblər. Yarası hələ sağalmamış Xocalı soyqırımı haqqında həqiqətlər, son 200 ildə ermənilərin türklərə və azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər neçə illərdir ki, real faktlarla Avropa ölkələrinin və qurumlarının diqqətinə çatdırılır. Buna baxmayaraq, Avropa ölkələri, Avropa Parlamenti, Avropa Şurası kimi qurumlar azərbaycanlılara qarşı törədilən soyqırımlar barədə heç bir qərar qəbul etməyiblər. Azərbaycanda milyonlarla dinc əhalinin Ermənistan tərəfindən pozulmuş hüquqlarına biganə yanaşan, bu ədalətsizliyə qarşı qətiyyətli addımlar atmayan, yüz minlərlə azərbaycanlının etnik təmizlənməyə məruz qalmasına, öz ata-baba torpaqlarından məcburi köçürülməsinə hələ də göz yuman Avropa Parlamentinin, guya "haqq-ədaləti" müdafiə edən Roma papasının "erməni soyqırımı" iddiasında olması dərin təəssüf doğurur. Əgər Avropa ölkələri və qurumları yüz il əvvəl "baş verən" qondarma soyqırımla məşğul olmağa vaxt tapırsa, o zaman yaxın tarixdə Azərbaycanın işğal olunmuş əraziləri, Xocalı soyqırımı və Ermənistanın terror təşkilatları tərəfindən qətlə yetirilən azərbaycanlılar və Türkiyə vətəndaşlarının taleyi barədə niyə məsələ qaldırmır? Türklərin taleyi bu ölkələri və təşkilatları ona görə düşündürmür ki, insan hüquq və azadlıqları onlar üçün ali məqsəd deyil.

Tarixi faktlar, sənədlər təsdiq edir ki, 1915-ci ildə Türkiyə ərazisində ermənilərə qarşı heç bir soyqırımı olmayıb. Türkiyənin müharibəyə cəlb olunduğu həmin dövrdə ermənilər çoxsaylı silahlı dəstələr yaradaraq arxa cəbhədə üsyan qaldırıblar, türk ordusuna qarşı hücumlar təşkil ediblər, ayrı-ayrı şəhər və qəsəbələrdə kütləvi qətllər törədiblər. Türk ordusu dinc əhalini müdafiə etmək, onları erməni vəhşiliklərindən qorumaq üçün lazımi tədbirlər görüb. Erməni partiya və komitələrinin 235 nəfər fəal üzvünün həbs edilərək hərbi məhkəməyə verilməsinin soyqırımı kimi qiymətləndirilməsi tarixi faktların təhrif olunmasıdır, Türkiyəyə qarşı qərəzli mövqedir. "Erməni soyqırımı" haqqında iddialar subyektiv mülahizələrə söykənib, antimüsəlman və antitürk meyillərinin güclənməsinin təzahürüdür. Bu həm də müasir dünyada, xüsusən Qərbdə hökm sürən ikili standartların nəticəsidir.

***Bildiyimiz kimi, Ermənistan Avropa Birliyinin üzvü deyil. Bəs Avropa Parlamentinin bu erməni sevgisi nədən qaynaqlanır? Əslində, Azərbaycan-Türkiyə birliyinin getdikcə güclənməsindən qorxuya düşən avropalılar "erməni soyqırımı" barədə qətnamə qəbul etməklə, bəyanat verməklə yenə ermənilərdən vasitə kimi istifadə edirlər. Tərəqqipərvər bəşəriyyət bilir ki, belə hadisə olmayıb, bu kimi qərarlar və qətnamələr yalnız ayrı-ayrı dairələrin öz maraqlarını təmin etmək cəhdlərinin nəticəsi olaraq meydana çıxır. Ancaq bir atalar məsəlində deyildiyi kimi: "Haqq nazilər, üzülməz". Bu qərəzli beynəlxalq təşkilatların, ölkələrin, papaların məqsədi gec-tez ortaya çıxacaq və onlar öz məqsədlərinə çata bilməyəcəklər.***

**Fəxrəddin CƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsinin rəisi, tarix üzrə elmlər doktoru***

***Azərbaycan xalqının tarixi yaddaşında silinməz izlər qoyan novator ədib, publisist, dramaturq, nasir, "Molla Nəsrəddin" (1906-1931) jurnalının baş redaktoru Cəlil Məmmədquluzadənin yaradıcılığında erməni amili türk xalqlarının əzəli düşməni kimi dəyərləndirilib.***

# Cəlil Məmmədquluzadə yaradıcılığında ermənilərin törətdikləri soyqırımların bədii əksi

"Molla Nəsrəddin" jurnalı 1906-cı ildə nəşrə başlayanda 1905-ci ildə, sonrakı nömrələrində isə 1906 və 1907-ci illərdə ermənilərin törətdikləri vəhşilikləri, insan adına sığmayan qəddarlıqları xatırlatmaya, bu hadisələri tarixin ədəbi-bədii yaddaşına həkk etməyə bilməzdi. Mirzə Cəlil bu hadisələrin unudulmaması üçün həm karikatura, həm satirik şeir, həm də atalar sözləri, tapmaca, xəbərlər və poçt qutusu satirik-publisistik janrlarla o dövrün salnaməsini yaratmışdır. 1905-ci ildə ermənilərin silahlandığı, müsəlmanların isə əliyalın olduğu bu ədalətsiz, qeyri-bərabər qarşıdurmadakı ölüm həyəcanını Tiflisdə ermənilərin yaşadığı məhəllədə yerləşən redaksiyada yaşayıb fəaliyyət göstərən ədib özü də şəxsən yaşamışdı. Məhz bu hiss idi "Kamança" əsərində Mirzə Cəlili ağladan, göz yaşlarını çölə yox, içinə axıtmağa məcbur edən...

Böyük ədib "Xatiratım" memuarında, çox doğru olaraq, xalq danışıq dilində olduğu kimi silahlı toqquşma, qarşıdurma və ya müharibə mənasını verən erməni-müsəlman davasından, onun yaranma səbəblərindən və nəticələrindən ətraflı bəhs edib. Ədib bu qeydlərinin Azərbaycan tarixini yazanlar üçün "xeyli lüzumlu bir material ola biləcəyini" düşünərək gələcək nəsillər üçün qələmə alıb: "Bu vaxtlar rusyapon davası axıra yetişdi. ...Az qalırdı ki, əhalinin qulağı müharibənin top və tüfəng söhbətlərindən və tökülən minlərcə qanların müsibətindən xilas olsun. Bu heyndə erməni-müsəlman davası başlandı. Dünya yenə bir-birinə dəydi və ələlxüsus ki biz. Çünki mətbəəmiz, məktəbimiz və mənzilimiz erməni məhəlləsində idi, xeyli rahatsızlıq çəkdik".

Ədib qeyd edir ki, erməni-müsəlman davasına o, mətbuat vasitəsilə öz münasibətini bildirib. Burada istedadlı sənətkar "Molla Nəsrəddin" jurnalının ilk nömrəsindəcə bu mövzuda verilmiş karikaturanı xatırladır: "... sənə min doqquz yüz altıncı ildə aprel ayının altısında, erməni-müsəlman davasının qızğın vaxtlarında biz belə bir şəkil çəkmişik: bir müsəlman kəndlisi öz inəyini bir rus soldatına təklif edir və əvəzində onun tüfəngini istəyir. Buradaca bir erməni yenə haman tüfəngli soldata bir paçka əskinas pul təklif edir və onun tüfəngini istəyir. Bu şəkil öz bu il tayfanın bu davaya hazırlaşmaq həvəsini eyni mizanda göstərir".

"Molla Nəsrəddin" jurnalında dərc olunan "Atalar sözləri", "Bilməli xəbərlər"də (Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olundular ki, təbiblər onların çölə çıxmağını rəva görmürdülər?), eyni zamanda "Lisan bəlası" felyetonu və eyniadlı satirik şeirdə erməni-müsəlman davasından bəhs edilir. Cəlil Məmmədquluzadənin "Kamança" (1920), "Lisan bəlası" (1906), "Oyanmadım" (1906) əsərlərində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi kütləvi qırğınlar öz əksini tapıb. "Lisan bəlası" və "Oyanmadım" satirik şeirlərində XX əsr Azərbaycan həyatında baş verən mühüm ictimai hadisələr öz bədii əksini tapıb. Bu hadisələrin içində Mirzə Cəlili daha çox düşündürən və narahat edən ədibin məhşər qiyamətinin qopmasına bənzətdiyi "müsəlmanların bir-birini qırması"dır. Vaxtilə akademik Tofiq Hacıyevin çox doğru olaraq qeyd etdiyi kimi, bu ifadə ilə böyük satirik, əslində, ermənilərin müsəlmanları qırmasını nəzərdə tutub. Baş verən bu hadisələrə, ermənilərin günahsız insanların qanlarını tökmələrinə və özlərini məzlum, yazıq, günahsız kimi göstərmələrinə Mirzə Cəlil kəskin münasibət bildirməyi özünün vətəndaşlıq borcu hesab edib. Ermənilərin özbaşınalıqları, cinayətlərinin miqyası o dərəcədə genişdir ki, istedadlı sənətkar bu hadisələri dünyanın yerlə yeksan olacağı və bütün ölülərin dirilib haqq-hesab olunacaqları qiyamət günü ilə müqayisə edib. Mirzə Cəlilin "Molla Nəsrəddin" jurnalında çap olunan karikaturalar vasitəsilə, felyeton və məqalələrində, satirik şeirlərində, bədii yaradıcılığında da tez-tez bu mövzuya toxunması onun hadisələrə uzaqgörənliklə münasibət bildirdiyini göstərməkdədir. "Yoldaş" (1907) məqaləsində ədib yazır: "Bunu uşaq da bilir ki, erməninin düşməni müsəlmandır, müsəlmanın düşməni də ermənidir. Allah erməni və müsəlman davasına bərəkət versin. Əgər erməni-müsəlman davası olmasaydı, ermənilər Qarabağda Xankəndini dağıdıb müsəlmanın var-yoxuna sahib ola bilməzdilər". "Qarnıyoğunlar" (1906) felyetonunda Mirzə Cəlil bu barədəki fikirlərini daha kəskin ifadə edir: "Erməni ləfzi bizlərdə söyüş kimi bir sözdür, bir müsəlmana erməni demək onu bihörmət eləmək kimidir".

"Usta Zeynal" (1905) hekayəsində erməninin küpəsində su gətirərək aləmi murdarlayan Qurbanı ustanın bağışlaya bilməməsi, "Kişmiş oyunu"nda (1904) tarixin müxtəlif dönəmlərində onların etdiklərinin, bir növ, əvəzini çıxmaq, dərslərini verərək yerlərində oturtmaq arzusunun ifadəsi, "Kamança"da (1920) isə erməninin mahir çalğıçısından öz intiqamını ala bilməyərək onu bağışlayan Qəhrəman yüzbaşının humanizmi bu əsərlərin müəllifinin bu iki xalqın xüsusiyyətlərini çox yaxşı bildiyini sübut edir. "Molla Nəsrəddin" jurnalında dərc edilmiş "Düşmən səni daş ilə, sən düşməni bozbaş ilə", "At at ilə boğuşar, hökumətin işi rast gələr", "Qonşun pisdir, vur, öldür" kimi satirik atalar sözlərində də düşmən, namərd qonşu kimi ifadələrlə Mirzə Cəlil məhz erməniləri nəzərdə tutub.

Jurnalın birinci nömrəsindəki "Teleqramlar"da da bu mövzuya toxunulub: "Naxçıvan: 30 mart. Kazaklar general-qubernatordan təvəqqə edirlər ki, onlara patron əvəzinə çoxluca işpiçka göndərilsin". Bu teleqramın mənasını böyük ədib belə izah edir: "Bunun mənası budur ki, o vədə erməni-müsəlman davasında iki ...qonşu bir-birini qırmaqda ikən rus kazakları da bir tərəfdən şəhəri yandırmağa mübaşir olurmuşlar".

"Xatiratım" memuarından aydın olur ki, Tiflisdə o zaman erməni azğınlıqları o dərəcəyə çatıbmış ki, müsəlmanlar hətta öz ev-eşiklərini tərk etməyə məcbur olublar. Həm də Mirzə Cəlil bu hadisədən təkcə erməni-azərbaycanlı qarşıdurması kimi yox, daha geniş miqyas almış erməni-müsəlman davası kimi bəhs edir.

*Beləliklə, böyük vətənpərvər ədib Cəlil Məmmədquluzadənin yuxarıda qeyd etdiyimiz əsərləri ermənilərin müsəlmanlara qarşı törətdikləri cinayətləri araşdırmaq və bir çox yeni məqamları ortaya qoymaq baxımından xüsusi əhəmiyyət kəsb edir.*

**Aygün ORUCOVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

## “Təfəkküryönümlü kurikulumların tətbiqi yolları” mövzusunda elmi-praktik konfrans keçirilib

***Naxçıvan Müəllimlər İnstitutunun və Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin təşkilatçılığı ilə “Ümumtəhsil məktəblərində təfəkküryönümlü kurikulumların tətbiqi yolları” mövzusunda elmi-praktik konfrans keçirilib.***



Konfransı giriş sözü ilə Heydər Əliyev adına tam orta məktəbin direktoru Namiq Məmmədov açaraq bildirib ki, yeni təhsil islahatının məktəblərdə həyata keçirilməsi ilə əlaqədar olaraq qarşıya çıxan problemlərin aradan qaldırılması ilə bağlı məktəbimizlə Naxçıvan Müəllimlər İnstitutu birlikdə müxtəlif mövzularda elmi-praktik konfranslar keçirir. Bu konfranslar müzakirə formasında təşkil olunur ki, həmin müzakirələrdə ümumtəhsil məktəblərinin müəllimləri yeni tədris üsul və metodları haqqında məlumatlar əldə edirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli “Təfəkküryönümlü kurikulumların mahiyyəti” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, təhsil sahəsində kurikulum islahatının həyata keçirildiyi bir dövrdə müəllimlərin qarşısında duran əsas vəzifə millimənəvi və ümumbəşəri dəyərlərə malik, geniş dünyagörüşlü, təşəbbüskar və yenilikləri qiymətləndirməyi bacaran şəxsiyyət formalaşdırmaqdır. Cəmiyyətin və dövlətin inkişafını təmin edən sistemləşdirilmiş bilik, bacarıq və dəyərlərin mənimsənilməsi şagirdlərimizi gələcək həyata və səmərəli fəaliyyətə hazırlamağa xidmət edir.

Alim vurğulayıb ki, şagirdlərin şəxsiyyət kimi inkişafında təfəkkürün formalaşdırılması çox mühüm amildir. Bu mənada şəxsiyyətin formalaşmasında yaradıcı, məntiqi və tənqidi təfəkkürün inkişafı xüsusi rol oynayır.

Bildirilib ki, artıq təhsilimiz hafizə məktəbindən təfəkkür məktəbinə qədəm qoyub. Müəllimlər unutmamalıdırlar ki, şagirdin necə düşünməsi, hansı təfəkkür tərzinə malik olması onun gələcəyini, taleyini həll edən əsas amil rolunu oynayacaqdır. Dünya təcrübəsində şagirdlərin təfəkkür imkanlarının, idrak qabiliyyətlərinin, meyil və maraqlarının aşkar edilməsində xüsusi psixometrik, diaqnostik testlərdən, psixoloji metodikalardan geniş istifadə olunur. Bu baxımdan təlim və tərbiyənin hər bir şagirdin intellektual və ümumilikdə, şəxsi inkişafına uyğun təşkili üçün maksimum şərait yaradılmasında psixoloji xidmətin, bu xidməti bilavasitə həyata keçirən praktik psixoloqların rolunun və əhəmiyyətinin dərk edilməsi, onların pedaqoji prosesin bütün sahələrinə dərindən nüfuz etmələri yeni pedaqoji təfəkkürün təzahürü kimi qiymətləndirilməlidir.

Sonra Heydər Əliyev adına tam orta məktəbin müəllimi İradə Zeynalova “Təfəkküryönümlü kurikulumların tətbiqi təcrübəsindən” mövzusunda çıxış edib, müəllimlərin sualları cavablandırılıb.

## Veteranlarla görüş



Əlahiddə Ümumqoşun Ordusunun Zabitlər evində 1941-1945-ci illər müharibəsinin iştirakçıları ilə Naxçıvan Qarnizonunun şəxsi heyətinin görüşü keçirilib. Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Əlahiddə Ümumqoşun Ordusu və Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası birgə təşkil ediblər.

Tədbiri Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-psixoloji şöbəsinin rəisi, polkovnik Mirqiyas Rüstəmov açaraq görüşün keçirilməsinin mahiyyətindən və 1941-1945-ci illər müharibəsində Azərbaycan oğul və qızlarının göstərdikləri qəhrəmanlıqlardan danışıb.

Sonra Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov, Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Qara Fərzəliyev, şuranın sədr müavini Heydər Heydərov və Naxçıvan şəhər təşkilatının sədri Firudin Süleymanov çıxış ediblər.

## Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Əlahiddə Ümumqoşun Ordusunun birgə təşkilatçılığı ilə Culfa rayonunda yerləşən “N” hərbi hissədə gənclərin zabit və əsgərlərlə görüşü təşkil edilib.*

Görüşün keçirilməsində məqsəd əsgərlərdə ruh yüksəkliyinin artırılması, gənclərə vətənpərvərlik hissinin aşılanması, çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması və onların Vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunmasından ibarətdir.

Görüşdə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin idarə rəisi, polkovnik-leytenant Ziyaəddin Baxşəliyev və Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov çıxış edərək tədbirin keçirilməsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, Azərbaycanda güclü, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyinin birinci dövründə milli hərbi kadrların hazırlanması məqsədilə həyata keçirdiyi tədbirlər, xüsusilə bunun tərkib hissəsi kimi Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması mühüm tarixi əhəmiyyətə malikdir. İmperiya tərkibində azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması, əslində, gələcək müstəqillik üçün atılan addım idi. O dövrdə dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə hazırlanan hərbi kadrlar ölkəmiz müstəqillik qazandıqdan sonra Milli Ordumuzun komandan heyətini təşkil etmişdir. 1990-1993-cü illərdə ulu öndərin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla yanaşı, bütövlükdə, müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı olmuşdur.

Sonra gənclər “N” hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, xəstəxana, uşaq bağçası və təlim-tədris mərkəzi ilə tanış olublar. Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin bədii kollektivinin təqdim etdiyi konsert proqramı alqışlarla qarşılanıb.

Sonda gənclər əsgər yeməkxanası ilə tanış olub, əsgərlərlə birlikdə nahar ediblər.

## Görkəmli bəstəkarın 80 illiyi qeyd olunur

*Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatı laureatı, professor Vasif Adıgözəlovun anadan olmasının 80 illiyi münasibətilə Ordubad Şəhər Uşaq musiqi məktəbində tədbir keçirilib.*

Tədbirdə məktəbin direktoru Azər Məmmədov bildirib ki, Vasif Adıgözəlov sənət aləminə 1956-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının Birinci Qurultayında səslənmiş “Simfonik poema” və “Sonata”sı ilə gəlib. Və bu debüt uğurlu olub. Konservatoriyanın həm bəstəkarlıq, həm də pianino siniflərini bitirdikdən bir il sonra, 1959-cu ildə o, Bəstəkarlar İttifaqına üzv qəbul olunub.

Məktəbin müəllimləri Xuraman Əsədova və Aysel Heydərli bildiriblər ki, məhsuldar fəaliyyət göstərən Vasif Adıgözəlov milli musiqimizi dərindən bilirdi. Onun yaradıcılığında C.Məmmədquluzadənin eyniadlı tragikomediyası əsasında bəstələdiyi “Ölülər” operası mühüm yer tutur. Bəstəkara uğur gətirən və R.Mustafayevlə birlikdə musiqisevərlərə təqdim etdikləri “Xəsis” operettası Azərbaycan musiqi xəzinəsinin qiymətli incilərindəndir.

Qeyd olunub ki, XX əsrin 60-cı illərinin əvvəllərində dünya şöhrətli müğənni Rəşid Behbudovla birgə fəaliyyəti onun yaradıcılığının təbliğində mühüm rol oynayır. 1968-ci ildə yaratdığı “İkinci simfoniya” ona böyük şöhrət gətirir. Vasif Adıgözəlov “Fortepiano ilə orkestr üçün konsert” əsəri ilə bir daha Qara Qarayev sənət məktəbinə mənsubluğunu təsdiq edib. Ötən əsrin 80-ci illərində bəstəkar yeni ideya-estetik istiqamətlərdə, janrlarda intensiv axtarışlar aparır. Azərbaycan ağır sınaqlarla qarşılaşanda, sovet imperiyasının və onun totalitar ideologiyasının çökməsindən istifadə edən tarixi düşmənlər torpağımıza göz dikəndə böyük bəstəkar “Odlar yurdu” (sözləri R.Zəkanın) və “Qarabağ şikəstəsi” (sözləri T.Elçinin) oratoriyalarını yaratdı. Bu yeni janr onun üslubunu ideya-emosional, bədii-fəlsəfi baxımdan daha da zənginləşdirdi.

Sonra şagirdlərin sualları cavablandırılıb.

Həmin gün məktəbdə Vasif Adıgözəlovun həyat və yaradıcılığına həsr olunan açıq dərs keçilib.

**Xəbərlər şöbəsi**

## Şahmat yarışı



Naxçıvan şəhərindəki 3 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə şahmat yarışı keçirilib. Olimpiya sistemi üzrə keçirilən yarışda məktəbin 5-9-cu sinif şagirdləri iştirak ediblər. 4 gün davam edən yarışın yekun nəticələrinə əsasən, 5-ci sinif şagirdi Ümid Məmmədov bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. Digər iki pillədə isə Renat Hacıyev və Nihad Süleymanov qərarlaşıblar. Sonda qaliblər mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Stomatoloji Mərkəzdə elmi-praktik konfrans

***Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzində “Stomatoloji innovasiyalar” mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşları, Stomatoloji Mərkəzin həkim heyəti, səhiyyə müəssisələrində fəaliyyət göstərən həkim-stomatoloqlar və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin tələbələri iştirak ediblər.***

Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini Sona Məmmədova bildirib ki, əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca istiqamətlərindən olaraq daim dövlətin diqqət mərkəzindədir. Son illər muxtar respublikada səhiyyə sahəsində aparılan islahatlar nəticəsində əhalinin sağlamlığının qorunması istiqamətində bir sıra mühüm işlər görülüb, o cümlədən tibb müəssisələrinin maddi-texniki bazası əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb, yeni-yeni tibb müəssisələri tikilərək istifadəyə verilib. Bütün bunlarla bərabər, həmin müəssisələrin kadr təminatı da diqqət mərkəzində saxlanılır, həkimlərin peşə vərdişlərinin yüksəldilməsi məqsədilə ardıcıl iş aparılır.

Şübhə yoxdur ki, stomatoloji xəstəliklərin də diaqnostikası və müalicəsi üzrə təcrübələrin, elmi işlərin, standartların tələbə və mütəxəssislər arasında mübadiləsi tibbi xidmətin və əhalinin sağlamlığının qorunmasının keyfiyyətinin daha da artırılmasına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzin baş həkimi Səkinə Məmmədova çıxış edərək bildirib ki, cari ilin ötən dövründə 17 tam orta məktəb üzrə 6880 nəfər 7-17 yaş arası şagird profilaktik stomatoloji müayinələrə cəlb olunub. Şagirdlərin 73,1 faizində kariyes, 21 faizində ortodontik problemlər, 14,2 faizində dişəti xəstəlikləri, 11 faizində isə dişlərin erkən çəkilməsi aşkarlanıb. Bu problemlərin aradan qaldırılmasında əhali arasında, o cümlədən qadınların hamiləlik dövründə stomatoloji profilaktika və stomatoloji xidmətin aparılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan baş həkim uşaq stomatologiyası sahəsində elektroforez sistemin tətbiqinin və 1 yaşdan 12 yaşadək uşaqlarda müalicə üsulu olaraq istifadə edilməsinin, uşaqlarda keçid dişləmi dövründə diaqnostik metodlardan istifadə olunması və total kariyesin erkən aşkar edilib müalicəyə başlanılmasının, valideynlər arasında profilaktik söhbətlərin təşkilinin zəruriliyini qeyd edib.

Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin üçüncü kurs tələbələrindən Yusif Məmmədli, Fərid Mahmudzadə, Qəmər Bədəlova, Fuad İbrahimli, Könül Zeynalova və başqaları yoxlamalar zamanı aşkar olunmuş xəstəliklər barədə konfrans iştirakçılarını məlumatlandırıblar.

İmplant-dent klinikasının həkim-stomatoloqu Rauf Cəfərov Naxçıvan Muxtar Respublikasında əhali arasında əsas stomatoloji xəstəliklərin epidemiologiyası haqqında məlumat verib.

Konfransda mövzuya dair videofilm və slaydlar nümayiş etdirilib, tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***






**İtmişdir**

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi, bina 79, mənzil 9-da yaşamış Həşimov Yaşar Muxtar oğlunun adına olan 9566 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 326